**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCANDA XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN SƏMƏRLİLİYİNİN YÜKSƏLDİLMƏSİ İSTİQAMƏTLƏRİ

İxtisas: 5308.01 – Ümumi iqtisadiyyat

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Yasəmən Ələvsət qızı Quluzadə**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru
**Elşən Əli oğlu İbrahimov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Müslümat Allahverdi qızı Allahverdiyeva**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Mətanət Əli qızı Abdalova**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Sevda Binyət qızı Məmmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin Birgə dissertasiya şurası.

Birgə Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü,
iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: iqtisad elmləri doktoru, professor
**Elnurə Bünyat qızı Məmmədova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Qlobal transformasiyalar şəraitində beynəlxalq ticarət axınlarının tənzimlənməsi və ölkələrarası ticarət mübadiləsinin maksimum səmərəli təmin edilməsi problemləri həmişə diqqət mərkəzində olmuşdur. Beynəlxalq ticarətin uzun illər ərzində mövcud olan mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq əmək bölgüsü sistemində ölkələrin ixtisaslaşmasının müasir xüsusiyyətlərinə uyğun olaraq qiymətləndirilməsi vacib şərtlərdəndir. Bunlarla bərabər, qlobal kontekstdə xarici ticarət əlaqələrinin genişləndirilməsi və işlək alətlər hesabına diversifikasiyalaşdırılması tədbirlərinin davamlı şəkildə həyata keçirilməsi tələb olunur.

Azərbaycan keçmiş SSRİ-nin süqutundan sonra müstəqil dövlət kimi beynəlxalq əmtəə bazarlarında öz yerini tutmaq və ixtisaslaşmaq üçün xeyli işlər görmüşdür. 1994-cü il sentyabr ayının 20-də imzalanmış "Əsrin müqaviləsi"nin icra olunması və ümumilikdə müstəqil dövlətimizin neft strategiyasının həyata keçirilməsi ölkəmizdə makroiqtisadi və makromaliyyə sabitliyini təmin etməklə bərabər, həm də xarici ticarət konsepsiyasının formalaşdırılmasına və reallaşdırılmasına imkan vermişdir. Belə ki, ilk növbədə neft xammalı ilə dünya bazarlarında möhkəmlənən və Avropa Birliyinin strateji enerji partnyoruna çevrilən Azərbaycan, hazırda təbii qaz ixracını ildən-ilə artırmaqdadır.

Bundan əlavə, ölkədə aparılan məqsədyönlü və ardıcıl islahatlar nəticəsində qeyri-neftqaz məhsullarının ixrac potensialının artırılması, daha çox milli brendlərin formalaşdırılması və xarici bazarlara çıxarılması prosesləri intensivləşməkdədir. Eyni zamanda, ölkənin idxal siyasətinin təkmilləşdirilməsi və tənzimlənməsi, idxaləvəzedici sahələrin inkişaf etdirilməsi, xarici ticarət fəaliyyəti iştirakçılarının sıralarının genişləndirilməsi və son nəticədə xarici ticarət əlaqələrinin gücləndirilməsi istiqamətlərində kompleks və sistemli tədbirlər görülməkdədir. Təsadüfi deyildir ki, Azərbaycan müasir dövrdə 170-dən çox ölkə ilə xarici ticarət əlaqələri yaradıb və bu əlaqələrin səmərəliliyinin artırılması istiqamətində tədbirlər həyata keçirilməkdədir. Düzdür, bu əlaqələrin əhəmiyyətli hissəsi neft, təbii

qaz xammalları və neft emalı məhsulları ilə bağlıdır. Lakin son illərdə qeyri-neftqaz sektoru sahələrinin ixracyönlü fəaliyyəti inkişaf etməkdədir və daha çox bu qəbildən olan ixracyönlü məhsullar dünya bazarlarına çıxarılmaqdadır.

Son illərdə qlobal səviyyədə enerji resurslarının qiymətlərinin qeyri-sabitliyi, beynəlxalq səviyyədə enerji resurslarının bölüşdürülməsindəki problemlər, bir çox ölkələrə qarşı tətbiq olunan iqtisadi sanksiyalar, konfliktlər və müharibələr beynəlxalq ticarət axınlarının məhdudlaşdırılmasına səbəb olmuşdur. Bu baxımdan ölkələrin xarici ticarət əlaqələri üzrə siyasətinin yenilənməsi ilə bərabər, eyni zamanda bu istiqamətdə fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi, yeni xarici ticarət marşrutlarının seçilməsi, qlobal əmtəə bazarlarında möhkəmlənmək üçün əlavə tədbirlərin görülməsi problemləri ortaya çıxmışdır. Hansı ki, qeyd olunan məsələlər ölkəmiz üçün də kifayət qədər aktual olmaqla bu istiqamətdə tədqiqatların aparılmasını obyektiv zərurətə çevirir.

Qarşıya qoyulmuş hədəflərə uyğun olaraq, hazırda Azərbaycan bir çox beynəlxalq əhəmiyyətli enerji və nəqliyyat layihələrinin təşəbbüskarı, həmçinin maliyyə donoru kimi bir sıra regional və dünya əhəmiyyətli layihələrin həyata keçirilməsi istiqamətində məqsədli iş aparır. Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanında yüksək texnologiyalar əsaslı infrastruktur yaradılmışdır. Bunlarla bərabər, Azərbaycan Respublikası Prezidentinin 22 may 2020-ci il tarixli Fərmanı ilə yaradılmış Ələt Azad İqtisadi Zonasının formalaşdırılması prosesləri sürətlə davam etməkdədir və bununla bağlı xüsusi qanun qəbul edilmiş, iqtisadi zonanın fəaliyyətə başlaması üçün infrastrukturun yaradılması əsasən başa çatdırılmışdır. Bu iqtisadi zonanın subyektlərinə 10 il müddətinə vergi və gömrük güzəştləri verilmişdir. Ölkəmizdə ixracın stimullaşdırılması üçün konkret motivasiyaedici mexanizmlər tətbiq olunmuşdur. Gömrük orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, ixrac-idxal əməliyyatlarının sənədlərinin rəsmiləşdirilməsi proseslərinin şəffaflığının yüksəldilməsi üçün islahatlar aparılmışdır. Eyni zamanda, bu əməliyyatlar zamanı məmur-sahibkar təmasının minimuma endirilməsi, elektron xidmətlərin əhatəsinin genişləndirilməsi, tarif və qeyri-tarif tənzimləmələrinin

səmərəliliyinin artırılması tədbirləri diqqət çəkir. Bu istiqamətdə həyata keçirilən islahatların və siyasətin ardıcıllığını təmin etmək məqsədilə yeni çağırışlara uyğun bir sıra dövlət proqramları və konsepsiyalarla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələri" və onun tərkib hissəsi olan "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" xüsusi əhəmiyyət kəsb edir[1].

Qeyd edək ki, AR Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamına əsasən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"i təsdiq edilmişdir. Bununla bərabər, ölkə Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamına əsasən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası" təsdiq olunmuşdur. Bundan başqa, xarici ticarət dövriyyəsinin genişləndirilməsi, ixrac potensialının artırılması və idxalın səmərəliliyinin yüksəldilməsi məsələləri prioritet hədəf kimi AR Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda da müəyyənləşdirilmişdir. Bu mühüm sənədlərdə əvvəllər reallaşdırılmış və hal-hazırda icra edilən dövlət proqramlarının davamı olaraq ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neftqaz sektoru sahələrinin sürətlə inkişaf etdirilməsi, yaşıl iqtisadiyyatın formalaşdırılması, daha geniş çeşiddə milli brendlərin yaradılması və xarici bazarlara çıxarılması hədəfləri yer almışdır.

Eyni zamanda, türkdilli dövlətlərlə ticarət-iqtisadi əlaqələrin daha dinamik inkişaf səviyyəsinə qaldırılması istiqamətində tədbirlərə başlanılmışdır. Hesab edirik ki, türkdilli dövlətlərin ümumi bazarının formalaşdırılması və inkişaf etdirilməsi ölkəmizin xarici ticarət əlaqələrinin genişləndirilməsinə və səmərəliliyinin yüksəldilməsinə əlavə imkanlar yaradacaqdır.

Ölkəmizin xarici ticarət əlaqələrinin şaxələndirilməsi və səmərəliliyinin artırılması problemlərinin dərindən öyrənilməsinə, bu

---

[1] Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. – Bakı şəhəri, 6 dekabr 2016-cı il.

əlaqələrin üstün metodoloji cəhətlərinin müəyyənləşdirilməsinə, tətbiq olunan mexanizmlərinin adekvatlığının qiymətləndirilməsinə və qlobal çağırışlar kontekstində ölkəmizin xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması məqsədilə optimal fəaliyyət mexanizmlərinin işlənilməsinə, dövlət dəstəyi alətlərinin gücləndirilməsinə ciddi ehtiyac vardır. Bütün bunlar dissertasiya işinin mövzusunun aktuallığına dəlalət edir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi ilə əlaqədar olaraq qeyd etmək istərdik ki, ticarət əlaqələrinin səmərəli təşkili, dövlətin xarici ticarət siyasətinin formalaşdırılması və həyata keçirilməsi, xarici iqtisadi əlaqələrin maksimum səmərəli olması, xarici ticarət fəaliyyəti iştirakçılarının daha məhsuldar mexanizmlərə malik olması, potensial bazarların mənimsənilməsi, idxal-ixrac əməliyyatlarının rasionallığına nail olunması və bu qeyd olunan proseslərin, bunlarla bağlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərində araşdırmalar həyata keçirilmiş, fndamental elmi əsərlər ərsəyə gətirilmiş və nəzəri-metodoloji yanaşmalar müəyyənləşdirilmiş, maksimum praktiki fəaliyyət mexanizmləri və alətləri hazırlanaraq, tətbiq edilmişdir. Azərbaycanlı alimlərdən Z.Ə.Səmədzadə, Ə.X.Nuriyev, E.A.Quliyev, B.X.Ataşov, Ə.C.Muradov, A.Ş.Şəkərəliyev, İ.A.Kərimli, G.Ə.Gənciyev, Ş.T.Əliyev, F,Ə.Qənbərov, F.Ş.Hacıyev, Ü.Q.Əliyev, E.M.Hacızadə, D.Ə.Vəliyev, V.Ə.Qasımlı, V.İ.Bayramov, A.M.Əsədov, S.İ.Vəliyeva, P.Ə.Həsənova, M.A.Allahverdiyeva, E.Ə.İbrahimov, A.F.Abbasov, M.M.Məmmədli, E.N.Kərimov və başqalarının elmi əsərlərində bu göstərilən problemlər açıqlanmış və onların həlli yollarına baxılmışdır. Bunlarla yanaşı, xarici tədqiqatçı-alimlərin ticarət, xarici ticarət nəzəriyyələri, xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması problemləri üzrə elmi əsərləri də diqqətdə saxlanılmışdır. Qeyd olunan məsələlər A.Smit, A.Marşall, D.Rikardo, C.S.Mill, J.B.Say, P.A.Samuelson, P.R.Kruqman, R.M.Solou, V.Leontyev, B.Olin, E.Hekşer, A.Qray, J.E.Stiqlits, N.Q.Menkyu, L.İ.Abalkin, V.Y.Rıbalkin, R.İ.Xasbulatov və digərlərinin elmi əsərlərində öz əksini tapmışdır.

Digər tərəfdən, qlobal çağırışlar kontekstində ticarətin səmərəli təşkili, xarici ticarət əlaqələrinin genişləndirilməsi, dövlətin xarici

ticarət siyasətinin təkmilləşdirilməsi, bu istiqamətlərdə daha işlək fəaliyyət mexanizmlərinin hazırlanması və tətbiq edilməsi problemləri aktuallığı ilə seçilir. Hesab edirik ki, qeyd olunan problemlər üzrə fundamental tədqiqat işlərinin daha dərindən araşdırılmasına və dövrün tələblərinə uyğun işlək fəaliyyət mexanizmlərinin hazırlanaraq tətbiq edilməsinə ciddi zərurət qalmaqdadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikasında xarici ticarət əlaqələri, o cümlədən onların təşkili və inkişaf etdirilməsi proseslərini reallaşdıran subyektlər, aidiyyəti strukturlar və mövcud mexanizmlərdir.

Tədqiqatın predmeti isə müasir dövrdə Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyənləşdirilməsi və bunlarla bağlı mövcud fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi ilə əlaqədar iqtisadi münasibətlər, qanunauyğunluqlar, üsul və vasitələr təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi müasir dövrdə Azərbaycanın xarici ticarət əlaqələrinin genişləndirilməsi və onun səmərəliliyinin yüksəldilməsi istiqamətlərinin müəyyən edilməsidir. Bununla əlaqədar olaraq tədqiqat işində bir sıra aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- ✓ xarici ticarət əlaqələrinin səmərəliliyinin nəzəri əsaslarının araşdırılması və ümumiləşdirilməsi;
- ✓ qlobal təhdidlər şəraitində xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təsirinin tədqiq edilməsi;
- ✓ ölkəmizin xarici ticarət əlaqələrinin səmərəliliyinin müasir dövrün reallıqlarına uyğun şəkildə qiymətləndirilməsinin aparılması;
- ✓ ölkəmizin xarici ticarət əlaqələrinin milli iqtisadiyyatın inkişafında rolunun artırılması üçün kompleks və sistemli tədbirlərin müəyyənləşdirilməsi;
- ✓ Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması istiqamətində müasir dövrün tələblərinə uyğun mexanizmlərinin tətbiqi və təkmilləşdirilməsi istiqamətlərinin göstərilməsi;
- ✓ postkonflikt ərazilərin dirçəldilməsi nəzərə alınmaqla ölkəmizin xarici ticarət əlaqələrinin diversfikasiyalaşdırılması

perspektivlərinin araşdırılması;
- ✓ müasir qlobal çağırışlar şəraitində ölkəmizin xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi məqsədilə daha üstün və vacib fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi;
- ✓ Azərbaycanın türkdilli dövlətlərlə xarici-iqtisadi əlaqələrinin gücləndirilməsi imkanlarının öyrənilməsi;
- ✓ yuxarıda sadalanan vəzifələrin yerinə yetirilməsi ilə bağlı müvafiq nəticələrə gəlinməsi, təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat zamanı bir qrup elmi metodlardan, ilk növbədə analiz, sintez, ümumiləşdirmə, müqayisə və s. metodlardan, eləcə də Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması ilə əlaqədar bir sıra ölkə və dünya tədqiqatçılarının elmi əsərlərinə istinad edilmiş və metodoloji yanaşmalarından istifadə olunmuşdur.

Qeyd olunanlarla yanaşı, Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi və bununla bağlı olaraq, dövlət siyasətinin təkmilləşdirilməsi prioritetlərindən, eyni zamanda bu sahədə mövcud olan Qanun və digər hüquqi sənədlərdən, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarından, müvafiq dövlət strukturlarının materiallarından, rəsmi statistik məlumatlardan, internet resurslarından, həmçinin ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının və beynəlxalq təşkilatların metodoloji materiallarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar** bunlardır:
- ✓ qlobal transformasiyalar şəraitində xarici ticarət əlaqələrinin səmərəliliyinə yeni baxışların formalaşdırılması, bununla bağlı problemlərin daha dərindən araşdırılması və müasir dövrün tələbləri çərçivəsində yanaşmaların ümumiləşdirilməsinin dövlətin xarici ticarət əlaqələri ilə uzlaşdırılmasına ehtiyac vardır;
- ✓ müasir şəraitdə xarici ticarət əlaqələrinin səmərəli təşkil olunması, məhsuldarlığın artırılması, onun coğrafiyasının genişləndirilməsi və xarici ticarət axınlarının sürətləndirilməsi məqsədilə daha səmərəli nəqliyyat-logistika marşrutlarının işlənməsi və tətbiqi baxımından metodoloji yanaşmalar

araşdırılaraq, üstün metodoloji üslubların müəyyənləşdirilməsi və xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması istiqamətində yeni metodikaların tətbiqinə zərurət yaranmışdır;

- ✓ yeni çağırışlar baxımından xarici ticarət əlaqələrinin genişləndirilməsi, ölkəyə daxil olan valyuta axınlarının sürətləndirilməsi, ölkədən çıxan valyuta vəsaitlərinin qarşısının alınması üçün tədbirlərin görülməsi, idxaləvəzedici sahələrin inkişaf etdirilməsi, ixrac potensialının artırılması tədbirlərinin görülməsi üçün dünya ölkələrinin təcrübəsinin dərindən öyrənilməsinə və milli maraqlara uyğun beynəlxalq təcrübə modellərinin tətbiqi ilə əlaqədar fikirlərin ümumiləşdirilməsinə ehtiyac vardır;
- ✓ ölkəmizin xarici ticarət əlaqələrinin maksimum səmərəli təşkil olunması, idxal, ixrac əməliyyatlarının səmərəliliyinin artırılması məqsədilə müasir vəziyyətin təhlil edilməsi və səmərəliliyinin qiymətləndirilməsi əsasında adekvat tədbirlərin görülməsi üçün təkliflərin hazırlanması və yeni mexanizmlərin işlənilməsi tələb olunur;
- ✓ hazırkı dövrdə ölkəmizin xarici ticarət əlaqələrinin genişləndirilməsi hesabına milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, dünyada gedən proseslərə rəğmən onun çevikliyinin artırılması, milli iqtisadi subyektlərin beynəlxalq bazarlarda möhkəmlənməsinin təmin edilməsi və beynəlxalq əmək bölgüsü sistemində ixtisaslaşmasının daha da dərinləşməsi, neft-qaz məhsulları ilə yanaşı digər ixrac məhsulları istiqamətində də ixtisaslaşma imkanlarının öyrənilməsi və təmin olunması baxımından xarici ticarət əlaqələrinin milli iqtisadiyyatın inkişafında rolunun gücləndirilməsi istiqamətində kompleks və sistemli tədbirlərin görülməsi məqsədilə müvafiq konsepsiyanın hazırlanması və reallaşdırılması faydalı ola bilərdi;
- ✓ Azərbaycanda xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi məqsədilə hazırda fəaliyyətdə olan dövlət dəstəyi mexanizmlərinin, idxal və ixracın stimullaşdırılması üzrə təşviq sənədlərinin və həyata keçirilən praktiki fəaliyyət alətlərinin sistemli şəkildə daim təkmilləşdirilməsi məqsədilə daha ünvanlı

təşviqedici dövlət dəstəyi mexanizmlərinin hazırlanması və tətbiq olunması vacibdir;

- ✓ müasir dövrdə ölkəmiz qarşısında duran strateji vəzifələrdən biri kimi işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi, Böyük Qayıdışın təmin edilməsi ilə bağlı I Dövlət Proqramının yerinə yetirilməsi proseslərində xarici ticarət əlaqələrinin gücləndirilməsi perspektivlərindən səmərəli istifadə olunması, türkdilli dövlətlərlərlə xarici ticarət əlaqələrinin daha sıx şəkildə təmin edilməsi, postkonflikt ərazilərdə ixracyönümlü sahələrin inkişaf etdirilməsi və daha səmərəli idxal siyasətinin yürüdülməsi, xüsusilə milli brendlərin formalaşdırılması və region üçün adekvat olan qeyri-neftqaz sahələrinin inkişaf etdirilməsi, onların ixrac potensialının artırılması perspektivlərinin müəyyənləşdirilməsi və səmərəli istifadə edilməsi əhəmiyyətli fayda verə bilər;
- ✓ qlobal çağırışlar şəraitində ölkəmizin xarici ticarət siyasətinin təkmilləşdirilməsi, xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması baxımından müasir dövrün tələbləri əsas götürülməklə, bu istiqamətlərdə dövlət siyasətinin yenilənməsinə, daha səmərəli tədbirlər kompleksinin işlənib hazırlanmasına, həmçinin bununla bağlı məqsədli dövlət proqramlarının hazırlanaraq reallaşdırılmasına zərurət yaranmışdır.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- ✓ qlobal transformasiyalar şəraitində xarici ticarətin milli iqtisadiyyatda rolu və səmərəliliyini əks etdirən, ölkənin iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb edən amillər və xarici ticarət siyasətinin əsas prinsipləri sistemləşdirilmişdir;
- ✓ Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin səmərəliliyinin obyektiv olaraq qiymətləndirilməsi meyarları müəyyənləşdirilmiş və beynəlxalq iqtisadi münasibətlər sistemində xarici bazarda ticarətin əhəmiyyətini və rolunu şərtləndirən mühüm amillərin blok-sxemi hazırlanmışdır;
- ✓ dünya təcrübəsinə uyğun tədqiqat aparılaraq ölkələrin xarici iqtisadi əlaqələrinin səmərəlilik göstəricilərinə əsasən, xarici ticarət üzrə qiymətləndirmə göstəricilərinin metodikasına

əsaslanmaqla bu əlaqələrin təhlilinin mühüm mərhələlərinin və istiqamətlərinin blok-sxemi hazırlanmışdır;

- ✓ Azərbaycan Respublikasında xarici ticarətin inkişafı və xarici ticarət əlaqələrinin şaxələndirilməsi məqsədilə ixracın strukturunun genişləndirilməsi üzrə fəaliyyət proqramının tərkib elementləri hazırlanmış və əsas istiqamətləri müəyyənləşdirilmişdir, xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi kontekstində bir sıra məhsullar üzrə Azərbaycanın idxaldan asılılığının qarşısının alınması üçün strateji fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş və elmi arqumentlərlə əsaslandırılmışdır;
- ✓ dünya ticarətinin inkişaf postulatları və yeni çağırışlar kontekstində Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması istiqamətlərinin blok-sxemi hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində əldə olunmuş elmi müddəalardan və təkliflərdən Azərbaycanın xarici ticarət əlaqələrinin daha səmərəli təşkil edilməsi və genişləndirilməsi tədbirlərində, bunlarla bağlı fəaliyyət mexanizmlərinin tənzimlənməsində və təkmilləşdirilməsində, məqsədli fəaliyyət strategiyalarının və proqramlarının hazırlanmasında istifadə edilə bilər. Eyni zamanda, dissertasiya işindəki materiallardan dərsliklərin, dərs vəsaitlərinin və mühazirələrin hazırlanmasında istifadə edilməsi mümkündür.

Tədqiqat prosesində əldə olunmuş elmi müddəalardan və hazırlanmış təkliflərdən Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi tədbirlərində, bununla bağlı daha üstün fəaliyyət mexanizmlərinin hazırlanmasında istifadə etmək mümkündür.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin mövzusu Azərbaycan Kooperasiya Universitetində planlaşdırılmış elmi-tədqiqat işlərinin ümumi istiqamətinə müvafiqdir və hazırda aktual problemlər kimi qiymətləndirilir.

Dissertasiya işinin mövzusuna dair iddiaçının 10 elmi əsəri, o cümlədən, 6 məqalə və 4 tezisi, onlardan 2 məqalə və 2 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici

elmi jurnallarda dərc edilmişdir.

Tədqiqatın əsas müddəaları “Особенности развития внешней торговли Азербайджана” (Гомель, 2021); “Xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və mövcud problemlərin müəyyənləşdirilməsi” (Bakı, 2021); “Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin səmərəli inkişaf istiqamətləri” (Bakı, 2023); “Пути расширения внешнеторговых связей Азербайджана в современных условиях” (Москва, 2024) adlı tezislərdə verilmişdir.

Bundan əlavə, iddiaçının “Xarici ticarətin təşkilinin əsasları və inkişaf xüsusiyyətləri” (Bakı, 2020); “Анализ современного состояния внешнеторговых отношений Азербайджанской Республики” (Москва, 2022); “İqtisadi səmərəliyin mahiyyəti və məzmunu” (Bakı, 2021); “Müasir dövrdə ixracin səmərəliliyinin qiymətləndirilməsi məsələləri” (Bakı, 2023); “Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəlilik problemlərinə konseptual yanaşmalar” (Bakı, 2024); “Актуальные проблемы и перспективы расширения внешнеторговых связей Азербайджана” (Москва, 2024) adlı məqalələri dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Giriş (20292 işarə), I fəsil (84247 işarə), II fəsil (53279 işarə), III fəsil (83494 işarə), nəticə (16715 işarə) və istifadə olunmuş ədəbiyyat siyahısı (23532 işarə), ixtisarların siyahısı (600 işarə) üzrə ümumi həcm 299062 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı və ixtisarların siyahısı istisna olmaqla 258027 işarədir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **“Giriş”** hissəsində mövzunun aktuallığı əsaslandırılmış, tədqiqatın məqsəd və vəzifələri, metodları verilmiş, müdafiəyə çıxarılan əsas müddəalar şərh edilmiş, işin elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası göstərilmişdir.

Dissertasiya işinin **"Xarici ticarət əlaqələrinin səmərliliyinin yüksəldilməsinə nəzəri-metodoloji yanaşmalar"** adlanan birinci fəslində xarici ticarət əlaqələrinin səmərəliliyinin nəzəri əsasları tədqiq olunmuş, xarici ticarət əlaqələrinin səmərəliliyinin müyyənləşdirilməsinin metodoloji xüsusiyyətləri və qlobal transformasiyalar şəraitində xarici ticarət əlaqələrinin milli iqtisadiyyata təsiri araşdırılmışdır.

Qlobal iqtisadi proseslərin çox dərin şəkildə transformasiyaya uğraması, beynəlxalq ticarət axınlarının mürəkkəbləşməsi və ölkələr arasında inteqrasiya proseslərində yeni trendlərin formalaşması səbəbindən hər bir ölkənin xarici ticarət əlaqələrinin müasir dövrün tələbləri nöqteyi-nəzərindən təkmilləşdirilməsinə və daha səmərəli təşkilinə ehtiyac vardır. Bundan əlavə, dünyanın əsas problemlərdən biri olan - ərzaq təhlükəsizliyinin təmin edilməsi istiqamətində dünya ölkələrinin səylərinin birləşdirilməsi, bu istiqamətdə beynəlxalq təşkilatların fəaliyyətinin optimallaşdırılması, mövcud ərzaq ehtiyatlarından istifadənin ən səmərəli yol və mexanizmlərinin modelləşdirilməsi prioritet fəaliyyət istiqamətləri çıxış edir[2].

Xarici ticarətin (XT) milli iqtisadiyyatda xüsusi rolu ondan ibarətdir ki, o, təsərrüfat fəaliyyətinin bütün sahələrinə inteqrasiya olunur və daxili istehlak, investisiya, maliyyə və texnoloji resursların çatışmazlığını doldurmaq funksiyalarını yerinə yetirir:

– dünya bazarında likvid resurslar istehsal edən sektorlar üçün bazarların təmin edilməsi;

– daxili son tələbatın ödənilməsi üçün resursların təmin edilməsi;

– büdcə-vergi daxilolmalarının artması;

– iqtisadiyyatın müxtəlif sahələrində maliyyə resurslarının çatışmazlığını ödəmək üçün kapital axını və s.

– XT-nin milli iqtisadiyyatın fəaliyyətində rolundan və səmərəliliyindən danışarkən, bir qrup amillərin ölkənin iqtisadi inkişafında mühüm amillər kimi diqqət çəkdiyini qeyd edə bilərik (şəkil 1).

---

[2] Quliyev, E.A. Qlobal ərzaq təhlükəsizliyi: reallıqlar, çağırışlar və perspektivlər. Bakı: Kooperasiya, 2018. – 480 s.




**Şəkil 1. Xarici ticarətin milli iqtisadiyyatın fəaliyyətində rolu və səmərəliliyini ehtiva edən, ölkənin iqtisadi inkişafında əhəmiyyətli olan mühüm amillər**

*Mənbə: müəllif tərəfindən ümumiləşdirilmişdir.*

– XT istehsalın ixtisaslaşması və təmərküzləşməsinin genişlənməsi və dərinləşməsi, dünya təsərrüfat sisteminə inteqrasiyası yolu ilə ölkənin iqtisadi inkişafına töhfə verir.

Hesab edirik ki, XT-nin inkişaf istiqamətləri təhlil edilərkən iki hal nəzərə alınmalıdır. Bunlara: *“birincisi, təbii, əmək və s. kimi iqtisadi resurslar, hansı ki, ölkələr arasında qeyri-bərabər bölüşdürülür,*

*ikincisi, müxtəlif malların səmərəli istehsalı üçün müxtəlif tip və növdə olan texnologiyalar və ya resursların birləşmələri tələb olunur"*[3].

Beynəlxalq iqtisadi münasibətlər sistemində xarici bazarda xarici ticarətin əhəmiyyətini şərtləndirən mühüm amillərin blok-sxemini şəkil 2-də vermişik.




**Şəkil 2. BİM sistemində xarici bazarda ticarətin əhəmiyyətini və rolunu şərtləndirən mühüm amillərin blok-sxemini**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

XTS-nin məzmunu (proteksionizm, azad ticarət siyasəti) dövlətin fəaliyyət göstərdiyi siyasi və sosial-iqtisadi şəraitdən asılıdır, iqtisadi münasibətləri təmin etmək üçün XTF-nin xarakterini müəyyən edən beynəlxalq münasibətlər sistemindəki dəyişikliklərə reaksiyadır. Bu baxımdan da qlobal transformasiyalar şəraitində ölkənin xarici ticarət siyasətinin əsas prinsiplərini şəkil 3-dəki kimi müəyyənləşdirmək olar.

---

[3] Рзаев, М.А. Анализ различных взглядов по проблеме международных торговых связей в ракурсе международных торговых связей Азербайджана / М.А.Рзаев // Наука, техника и образование. – 2020. № 9(73), – s.51.




**Şəkil 3. Qlobal transformasiyalar şəraitində ölkənin xarici ticarət siyasətinin əsas prinsipləri**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Xarici ticarətin GTT-si gömrük rüsumlarının, gömrük prosedurlarının, qaydalarının tətbiqinə əsaslanan xarici ticarətin dövlət tənzimlənməsi metodlarının məcmusudur. Belə ki, ölkəmizdə gömrük tarifinin mahiyyəti, məqsəd və vəzifələri, gömrük rüsum dərəcələrinin növləri və onların müəyyənləşdirilməsi qaydaları və bu fəaliyyətlə bağlı digər anlayışlar "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır[4].

XİƏ-in səmərəliliyinin qiymətləndirilməsinə milli iqtisadtyyat mövqeyindən yanaşmanın tətbiqi ölkədən çıxarılan bütün əmtəə və xidmətlərin ümumi məsrəflərini bu məhsulların istehsalına sərf olunan məsrəflərlə müqayisə etməyə imkan verir. Belə ki, əgər idxal məhsullarının yerli istehsalına məsrəflər ixrac məhsullarının ödənilməsinə məsrəflərdən böyükdürsə, onda ölkə mübadilədən qazanc əldə edir. Lakin nəticə mənfi də ola bilər və xarici iqtisadi

[4] Gömrük tarifi haqqında Azərbaycan Respublikasının Qanunu. – Bakı, – 13 iyun 2013.

fəaliyyət praktikasında belə hallar əsasən o zaman olur ki, qiymətdəki neqativ dəyişmələrə görə bu və ya digər məhsulun ayrıca götürülmüş ixracı rentabelsiz olur, lakin bununla yaranan itki artıqlaması ilə idxaldan qazancın böyük şəcmi hesabına örtülür[5]. Qlobal təhdidlər kontekstində XTƏ-lərin milli iqtisadiyyata təsirinin kompleks şəkildə araşdırılması və müəyyənləşdirilməsi üçün bu əlaqələrin formalaşması və metodikanın işlənilməsi vacibdir (şəkil 4).




**Şəkil 4. Xarici ticarət əlaqələrinin təhlilinin əsas mərhələləri və istiqamətlərinin blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

[5] Babayev, T.S. Azərbaycanın xarici ticarət potensialının genişləndirilməsində investisiya amilinin rolu. İ.e.f.d-nın dis. / – Bakı, 2014. – s. 54.

Qlobal şəraitdə XTƏ-nin milli iqtisadiyyata təsirini və səmərəlilik səviyyəsini müəyyənləşdirməkdən ötrü bu sahədə baş verən proseslərin araşdırılmasına zərurət vardır. Bundan əlavə, akademik Ziyad Səmədzadə yazır ki: *"Dövlət idarəetmə sistemində şəffaflıq prinsipinin qorunması, büdcə vəsaitlərinin təyinatı üzrə xərclənməsi, maliyyə intizamının gücləndirilməsi vacib məsələlərdəndir"*[6].

Qeyd edək ki, yeni reallıqlar kontekstində beynəlxalq iqtisadi münasibətlərin genişləndirilməsi prosesi yeni mərhələyə keçib - beynəlxalq iqtisadiyyatın pillə-pillə formalaşması prosesidir. Professor B.X.Ataşov bu barədə qeyd edir ki, *"BİM-in beynəlmiləlləşməsi ilə müvafiq milli bazarların məhdud imkanları arasında ziddiyyət BMB-lərin inkişafının obyektiv əsasını təşkil edir"*[7].

**"Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin səmərliliyinin təhlili və qiymətləndirilməsi"** adlanan ikinci fəsildə ölkənin xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili, Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsi və Azərbaycanın xarici ticarət əlaqələrinin milli iqtisadiyyatın inkişafında rolunun genişləndirilməsi haqqında araşdırma aparılmışdır.

Ölkəmizin XTƏ-nin müasir vəziyyətinin təhlili maraq doğurur. Cədvəl 1-də 1991-2023-cü illərdə Azərbaycanın xarici ticarət dövriyəsinin (XTD) ümumi göstəriciləri verilmişdir.

---

[6] Səmədzadə, Z.Ə. Dinamik inkişaf edən bir ölkədə şəffaflığın və maliyyə intizamının təmin olunması vacib şərtdir. [Elektron resurs] / http://www.samedzade.az/az/pages/183.

[7] Ataşov, B.X. Maliyyə bazarları. Bakı. - Kooperasiya nəşriyyatı, 2016. – s.405.

**Cədvəl 1.**

**Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsinin ümumi göstəriciləri, 1991-2023-cü illər (mlyn. ABŞ dolları ilə)**

| İllər | Dövriyyə | | | İdxal | | | İxrac | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Cəmi | MDB xç, % | Uzaq xaric, xç, % | Cəmi | MDB xç, % | Uzaq xaric, xç, % | Cəmi | MDB xç, % | Uzaq Xaric, xaric, xç, % |
| 1991 | 4002,2 | 87,0 | 13,0 | 1 881,3 | 80,1 | 19,9 | 2 121,0 | 93,1 | 6,9 |
| 1995 | 1215,0 | 36,7 | 63,3 | 667,7 | 34,2 | 65,8 | 547,4 | 40,0 | 60,0 |
| 2014 | 31016,3 | 9,4 | 90,6 | 9187,7 | 22,7 | 77,3 | 21828,6 | 3,8 | 96,2 |
| 2015 | 21945,8 | 11,3 | 88,7 | 9216,7 | 21,3 | 78,7 | 12729,1 | 4,1 | 95,9 |
| 2016 | 21946,7 | 12,9 | 87,1 | 8489,1 | 25,4 | 74,6 | 13457,6 | 4,9 | 95,1 |
| 2017 | 24103,3 | 14,6 | 85,4 | 8783,3 | 27,3 | 72,7 | 15320,0 | 7,4 | 92,6 |
| 2018 | 30955,0 | 12,9 | 87,1 | 11465,9 | 25,0 | 75,0 | 19489,1 | 5,8 | 94,2 |
| 2019 | 33302,7 | 13,8 | 86,2 | 13667,5 | 25,1 | 74,9 | 19635,2 | 6,0 | 94,0 |
| 2020 | 24203,5 | 17,3 | 82,7 | 10732,0 | 26,1 | 73,9 | 13 471,5 | 9,5 | 90,5 |
| 2021 | 35636,8 | 13,9 | 86,1 | 11703,2 | 25,0 | 75,0 | 23933,6 | 8,1 | 91,9 |
| 2022 | 56212,1 | 11,5 | 88,5 | 14539,9 | 30,4 | 69,6 | 41672,2 | 4,3 | 95,7 |
| 2023 | 47003,0 | 12,5 | 87,5 | 17285,3 | 27,6 | 72,4 | 29717,7 | 4,9 | 95,1 |
| 2014-ci ilə nisbətən 2023-cü ildə artım, % | 151,5 | - | - | 188,1 | - | - | 136,1 | - | - |

*Mənbə: Azərbaycanın Xarici Ticarəti. Statistik məcmuə. /– Bakı, 2024. – s.12-13.*

Cədvəl 2-in təhlilindən yanaşsaq, görmək mümkündür ki, təhlil olunan dövr ərzində ümumi xarici ticarət dövriyyəsində MDB ölkələrinin payı 87 %-dən 12,5 %-ə qədər azalmışdır. Bu ilk növbədə neft və qaz xammalının Avropa və digər dünya ölkələrinə ixracı ilə əlaqəlidir. Analoji göstərici idxal üzrə 80,1 %-dən 27,6 %-ə, ixrac üzrə isə 93,1 %-dən 4,9 %-ə düşmüşdür. Bu faktın özü XTƏ-mizin kifayət qədər genişlənməsinin ifadəsi kimi də baxıla bilər. Son illərdə ixracın həcmi iki dəfədən çox artmışdır və bu da neft və qaz məhsullarının həcminin və qiymətinin artımı ilə bağlıdır.

Cədvəl 2-də Azərbaycanın idxalında əsas yer tutan ölkələrin xüsusi çəkisi əks olunmuşdur və, göründüyü kimi, ölkəmizin idxalında Rusiya, Çin və Türkiyə daha çox paya malikdirlər.

**Cədvəl 2.**

**Azərbaycanın idxalında əsas yer tutan ölkələrin xüsusi çəkisi (faizlə)**

| Ölkələr | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Belarus | 0,9 | 0,9 | 0,9 | 1,5 | 1,6 | 1,5 | 1,4 | 1,1 | 1,8 | 1,9 |
| Qazaxıstan | 2,4 | 1,1 | 1,2 | 1,2 | 1,5 | 1,5 | 1,1 | 0,8 | 3,4 | 1,2 |
| Rusiya Federasiyası | 14.3 | 15.6 | 19.3 | 17.7 | 16.4 | 16.8 | 18.3 | 17,7 | 18,8 | 18,3 |
| Ukrayna | 4.6 | 3.4 | 3.4 | 5.2 | 4.1 | 3.4 | 3.9 | 4,0 | 1,8 | 1,4 |
| Almaniya | 7.7 | 7.5 | 4.6 | 5.1 | 5.8 | 5.2 | 5.4 | 5,4 | 4,6 | 5,3 |
| Amerika Birləşmiş Ştatları | 6.1 | 9.2 | 5.6 | 8.2 | 4.6 | 5.6 | 5.9 | 3,8 | 3,3 | 5,1 |
| Böyük Britaniya və Şimali İrlandiyanın Birləşmiş Krallığı | 10.6 | 6.0 | 5.8 | 2.7 | 2.3 | 1.7 | 2.8 | 2,3 | 1,8 | 1,98 |
| Çin | 7.6 | 5.6 | 8.3 | 9.7 | 10.4 | 10.5 | 13.2 | 14,0 | 14,3 | 17,5 |
| Fransa | 1.7 | 2.3 | 1.8 | 1.8 | 1.6 | 1.8 | 4.2 | 1,5 | 1,5 | 2,3 |
| İran İslam Respublikası | 1.6 | 1.0 | 2.0 | 2.7 | 3.6 | 3.3 | 2.8 | 3,4 | 3,3 | 2,7 |
| İtaliya | 3.0 | 6.4 | 3.9 | 3.6 | 3.0 | 2.7 | 3.7 | 3,6 | 2,3 | 2,8 |
| Koreya Respublikası | 2.0 | 1.5 | 0.8 | 1.0 | 2.0 | 1.2 | 1.7 | 1,9 | 1,8 | 2,5 |
| Türkiyə | 14.0 | 12.7 | 13.9 | 14.5 | 13.8 | 12.0 | 14.6 | 15,8 | 15,8 | 13,3 |
| Yaponiya | 2.6 | 6.1 | 3.3 | 1.9 | 3.3 | 1.6 | 1,8 | 2,2 | 2,0 | 2,5 |
| Digər ölkələr | 20,8 | 20,9 | 25,1 | 23,1 | 26 | 31,1 | 19,3 | 22,4 | 23,4 | 21,22 |
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |

*Mənbə: Azərbaycanın Xarici Ticarəti. Statistik məcmuə. /– Bakı, 2024. – s.20-24.*

Cədvəl 3-də Azərbaycanın ixracında əsas yer tutan ölkələrin xüsusi çəkisi təhlil olunmuşdur və burada daha çox pay İtaliya və Türkiyəyə məxsusdur, bunlar isə ilk növbədə neft-qaz xammalının ixracı ilə bilavasitə bağlıdır.

Qrafik 1-də ölkəmizin xarici ticarət dövriyyəsində ixrac və idxalın xüsusi çəkisinin müqayisəli təhlili verilmişdir və buradan görmək mümkündür ki, 2023-cü ilin yekununda bu göstərici idxal üzrə 36,8 % və ixracda 63,2 % təşkil edir.

**Cədvəl 3.**

## Azərbaycanın ixracında əsas yer tutan ölkələrin xüsusi çəkisi (faizlə)

| Ölkələr | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Belarus | 0.1 | 0.08 | 0.4 | 0.11 | 0.1 | 0.1 | 1.2 | 1,3 | 0,3 | 0,09 |
| Qazaxıstan | 0.1 | 0.14 | 0.2 | 0.22 | 0.2 | 0.1 | 0.2 | 0,2 | 0,3 | 0,3 |
| Rusiya Federasiyası | 2.9 | 3.28 | 3.0 | 3.83 | 3.4 | 3.7 | 5.2 | 4,1 | 2,6 | 3,5 |
| Ukrayna | 0.2 | 0.18 | 0.3 | 2.80 | 1.8 | 1.7 | 2.6 | 2,0 | 0,9 | 0,4 |
| Almaniya | 8.8 | 9.62 | 4.5 | 2.94 | 4.0 | 4.7 | 1.7 | 2,9 | 1,6 | 2,7 |
| Amerika Birləşmiş Ştatları | 3.4 | 2.65 | 0.6 | 0.40 | 1.7 | 0.1 | 0.2 | 0,3 | 0,2 | 0,05 |
| Avstriya | 1.6 | 3.20 | 0.8 | 0.90 | 1.7 | 0.9 | 0.9 | 0,6 | 0,2 | 0,5 |
| Çexiya | 2.7 | 4.32 | 1.6 | 3.63 | 4.8 | 3.3 | 1.7 | 1,2 | 2,4 | 2,0 |
| Çin | 0.3 | 0.42 | 2.8 | 2.90 | 0.6 | 3.8 | 3.1 | 0,6 | 0,2 | 0,2 |
| Fransa | 7.0 | 6.79 | 4.7 | 3.00 | 2.3 | 2.7 | 0.8 | 0,3 | 0,1 | 0,4 |
| Gürcüstan | 2.4 | 3.90 | 3.1 | 3.18 | 2.6 | 3.0 | 3.4 | 3,0 | 1,7 | 2,2 |
| Hindistan | 3.6 | 2.12 | 4.1 | 2.64 | 4.2 | 4.9 | 3.3 | 2,7 | 4,4 | 3,6 |
| Xorvatiya | 1.4 | 1.56 | 2.0 | 1.39 | 1.3 | 2.2 | 3.4 | 3,4 | 2,5 | 1,7 |
| İspaniya | 3.6 | 2.48 | 3.7 | 2.51 | 2.0 | 3.6 | 2.4 | 2,5 | 2,6 | 2,3 |
| İsrail | 8.1 | 6.30 | 4.9 | 4.17 | 6.7 | 6.8 | 3.2 | 4,0 | 4,4 | 4,1 |
| İsveçrə | 0.7 | 0.76 | 0.8 | 1.19 | 0.8 | 0.9 | 1.6 | 1,2 | 1,1 | 0,5 |
| İtaliya | 22.0 | 17.71 | 32.2 | 34.94 | 30.2 | 28.7 | 30.4 | 41,6 | 46,6 | 44,9 |
| Portuqaliya | 2.5 | 2.90 | 2.5 | 3.27 | 2.7 | 1.8 | 1.7 | 2,6 | 1,9 | 0,9 |
| Tailand | 3.8 | 2.04 | 0.9 | 0.71 | 0.7 | 1.8 | 0.9 | 0,6 | 0,7 | 0,08 |
| Türkiyə | 2.3 | 11.61 | 8.8 | 9.10 | 9.4 | 14.6 | 18.9 | 12,7 | 9,3 | 15,8 |
| Yunanıstan | 1.2 | 1.14 | 1.5 | 1.04 | 0.8 | 1.2 | 3.8 | 1,9 | 3,6 | 4,0 |
| Digər ölkələr | 21.2 | 16.80 | 16.6 | 15.10 | 17.9 | 9.1 | 9.4 | 10,0 | 12,3 | 9,7 |

*Mənbə: Azərbaycanın Xarici Ticarəti. Statistik məcmuə. /– Bakı, 2024. – s.26-29.*




**Qrafik 1. Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsində ixrac və idxalın xüsusi çəkisi (faizlə), 2012-2023-cü illər**

*Mənbə: Azərbaycanın Xarici Ticarəti. Statistik məcmuə. /– Bakı, 2024. – s.12-13.*

Bundan əlavə, bizə görə Azərbaycan üçün əsas etibarı ilə XTƏ-in səmərəliliyinin obyektiv olaraq qiymətləndirilməsi vacibdir. Bu məqsədlə bir qrup meyarlardan istifadə edilməsi fikrimizcə daha səmərəli ola bilərdi (bax: şəkil 5).




**Şəkil 5. Azərbaycan Respublikasında xarici ticarət əlaqələrinin səmərəliliyinin qiymətləndirilməsi meyarları**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

XT-in səmərəliliyinin yüksəldilməsi üçün ixrac yönümlü istehsalların dəstəklənməsi vacib şərtlərdəndir. İxrac yönümlü istehsalların dəstəklənməsinin əsas istiqamətlərindən biri kimi istehsalçıların maliyyə problemlərinin həllidir ki, bu da müxtəlif üsullarla, o cümlədən güzəştli kreditlər, subsidiyalar, qrantlar vasitəsilə mümkündür. *"Maliyyə dəstəyinin göstərilməsi xarici ticarət münasibətlərində risklərin azaldılmasının əsas vasitələrindən biridir"*[8].

Bundan əlavə, ölkənin ixrac strukturunun genişləndirilməsinin

[8] Hüseynov, M.M. Kənd təsərrüfatı məhsulları üzrə xarici ticarət əlaqələrinin inkişaf istiqamətləri. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dis. avtoreferatı. / – Gəncə, 2021. – s.22.

əsası XT-in inkişafı üçün yalnız prioritetlərinin əsaslandırılmasını deyil, həm ixracın əmtəə quruluşuna təsir üsullarını ehtiva edən uyğun bir proqram olmalıdır və bu proqramda növbətililər prioritet fəaliyyət istiqamətləri kimi baxıla bilər (bax: şəkil 6).




**Şəkil 6. Azərbaycan Respublikasında xarici ticarətin inkişafı və xarici ticarət əlaqələrinin şaxələndirilməsi məqsədilə ixrac strukturunun genişləndirilməsi üzrə məqsədli Fəaliyyət Proqramının tərkib elementləri və əsas istiqamətləri**
*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

Dissertasiya işinin **"Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin səməriliiliyinin yüksəldilməsi perspektivləri və istiqamətləri"** üçüncü fəslində ölkədə xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi mexanizmlərinin təkmilləşdirilməsi, İşğaldan azad olunmuş ərazilərin resurs potensialından Azərbaycanın xarici ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində istifadəsi perspektivləri, yeni çağırışlar şəraitində Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması istiqamətləri və Azərbaycanın Türkdilli dövlətlərlə xarici-iqtisadi əlaqələrinin gücləndirilməsi məsələləri verilmişdir.

Böyük Qarabağ Zəfərindən sonra regionda obyektiv reallıqlar

yenicə formalaşmışdır və postkonflikt ərazilərin reabilitasiyası baxımından xeyli işlər görülür və burada bir neçə məsələləri qeyd etmək mümkündür: 1) Postkonflikt ərazilərin bərpası və dirçəldilməsi üçün konseptual yanaşmalar və strategiyalar formalaşdırılmışdır; 2) Postkonflikt ərazilərin inkişafı baxımından dövlətin siyasəti müvafiq sənədlərdə dövlət proqramında və fəaliyyət strategiyalarında öz əksini tapmışdır; 3) Hazırda Böyük Qayıdışın təmin edilməsi məqsədilə I Dövlət Proqramını reallaşdırılmaqdadır və çoxlu sayda infrastruktur obyektləri istismara verilmişdir və bu proseslər sürətlə davam etməkdədir; 4) Postkonflikt ərazilərin strateji rolu nəzərə alınmaqla burada beynəlxalq səviyyəli nəqliyyat-logistika, istehsal infrastrukturunun yaradılması proseslərinə başlanılmışdır.

Artıq regionda iki beynəlxalq aeroport – Füzuli və Zəngilan Beynəlxalq Hava Limanları fəaliyyətə başlamışdır. Laçın rayonunda üçüncü beynəlxalq hava limanının istismara verilməsi regionun resurslarından səmərəli və məhsuldar istifadəyə və regionun beynəlxalq səviyyədə ətraf regionlarla və dünya ölkələri ilə inteqrasiyasında önəmli rol oynayacaqdır.

XTƏ-in səmərəliliyinin artırılması üçün müəssisənin tənzimləyə və dəyişə biləcəyi amillərə isə bunları aid etmək mümkündür (şəkil 7):

Yuxarıda göstərilən amilləri nəzərə alaraq, müəssisənin XTƏ-lərinin səmərəliliyinin artırılmasının əsas istiqamətlərini müəyyənləşdirmişik (bax: şəkil 8).

Qlobal iqtisadiyyatda mövcud olan müəyyən problemləri nəzərə alınaraq, Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamı ilə "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın Milli Prioritetləri" adlı strateji əhəmiyyətli sənədi təsdiq etmişdir[9]. Bu prioritetlər içərisində xarici ticarət dövriyyəsinin strukturunun təkmilləşdirilməsi, ixracyönlü qeyri-neftqaz sektoru sahələrinin inkişaf etdirilməsi, ixrac potensialının maksimum artırılması daha çox ön plana çıxmışlar[10].

---

[9] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.
[10] Şəkərəliyeva, Z.A. Qeyri-neft sektorunda ixrac potensialından istifadənin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri // "AMEA-nın Xəbərləri" jurnalı. İqtisadiyyat seriyası, – Bakı. – 2019. №5, – s.45.




**Şəkil 7. Müasir şəraitdə xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması üçün xarici ticarət fəaliyyəti iştirakçısı - müəssisənin fəaliyyətinin tənzimlənməsini və modernləşdirilməsini şərtləndirən amillər**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*




**Şəkil 8. Müəssisələrin XTƏ-lərinin səmərəliliyinin artırılması istiqamətləri**
*Mənbə: müəllif yanaşması.*

Şəkil 9-da yeni çağırışlar kontekstində Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması istiqamətlərinin blok-sxemini vermişik.

Bunlarla bərabər, artıq Türkdilli dövlətlərin inteqrasiyasının sürətləndirilməsi xarici ticarət əlaqələrinin yeni mərhələyə qaldırılmasına imkan verəcək. Fikrimizcə, yaxın perspektivdə ənənəvi xarici ticarət istiqamətləri ilə yanaşı, eyni zamanda türkdilli dövlətlərlə həm idxal həmdə ixrac siyasətinin təkmilləşdirilməsinə, türkdilli dövlətlərin maraqlarına cavab verən əlaqələrin formalaşdırılmasına və inkişaf etdirilməsinə əlavə əsaslar yaradacaqdır.

Son illərdə Türkdilli dövlətlər arasında əməkdaşlıq yeni məzmun kəsb edib, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) kimi bir təşkilat çərçivəsində birləşmişlər. Hazırda bu təşkilata 5 üzv, 3 müşahidəçi ölkə daxildir ki, onların da hər birinin fərqli istəkləri və gözləntiləri vardır[11]. Türkdilli ölkələrin prezidentlərinin 2009-cu ildə

[11] Чжан, Ю. Организация тюркских государств (ОТГ): происхождение, мотивы, особенности и влияние. Вестник Пермского университета. Политология. Т. 17. №1. 2023. – s.78.




**Şəkil 9. Yeni çağırışlar kontekstində Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması istiqamətlərinin blok-sxemi**

*Mənbə: müəllif tərəfindən hazırlanmışdır.*

9-cu Zirvə Görüşündə imzaladıqları Naxçıvan Sazişi ilə əsası qoyulan TDƏŞ çərçivəsində həmin ölkələr bu gün bütün sahələrdə, xüsusilə ticarət-iqtisadi, siyasi və mədəni-humanitar sahələrdə uğurla əməkdaşlıq etməklə yanaşı, bir-birini də dəstəkləyirlər. TDƏŞ-in üzvləri, həmin ölkələrin prezidentləri arasında Zirvə görüşləri, işgüzar səfərlər, müxtəlif qurumların və sahibkarların iştirakı ilə biznes forumlar və ticarət missiyaları təşkil olunur və bu ölkələrlə əməkdaşlıq əlaqələri güclənir. 2021-ci il noyabrın 12-də İstanbulda keçirilən TDƏŞ-ə üzv ölkələrinin dövlət başçılarının 8-ci Zirvə toplantısında Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan liderləri həmin təşkilatın adının dəyişdirilməsini və Türk Dövlətləri Təşkilatı (TDT) adlandırılmasını elan ediblər.

Azərbaycanın Türkdilli dövlətlərlə XİƏ-lərinin əsas istiqaməti xarici ticarət sahəsindədir. Həmin dövlətlərlə ölkənin XTƏ-lərinin mövcud vəziyyətini təhlil etmək məqsədilə aşağıdakı cədvəl 4; şəkil 10 və şəkil 11-ə diqqət yetirək.

**Cədvəl 4.**

**Azərbaycanın tükdilli dövlətlərlə xarici ticarət dövriyyəsinin həcmi, milyon ABŞ dolları**

| | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| Tükiyə | 2648,6 | 3402,8 | 4509,5 | 4160,2 | 4661,8 | 5842,1 | 7650,6 |
| Qazaxıstan | 116,8 | 220,7 | 229,6 | 142,0 | 134,7 | 598,4 | 314,1 |
| Türkmənistan | 52,4 | 133,0 | 225,6 | 108,6 | 105,0 | 535,4 | 773,9 |
| Qırxızıstan | 8,1 | 6,0 | 5,8 | 5,4 | 9,0 | 10,8 | 64,9 |
| Özbəkistan | 17,0 | 43,9 | 81,9 | 82,3 | 111,9 | 183,3 | 178,7 |
| **Cəmi** | **2842,9** | **3806,4** | **5052,4** | **4498,5** | **5022,4** | **7170,0** | **8982,2** |

*Mənbə: müəllif tərəfindən https://customs.gov.az/uploads/foreign/2023/2023_12.pdf?v=1705581222// və https://www.stat.gov.az/source/trade//-əsasında hazırlanıb.*

Cədvəl 4-dən görünür ki, Azərbaycanın türkdilli dövlətlərlə XTD-nin həcmi tədqiq olunan dövrlər ərzində 2020-ci il istisna olmaqla, davamlı olaraq artmışdır. 2023-cü ildə Türkdilli dövlətlərlə XTD-nin həcmi 8982,2 milyon ABŞ dolları olub ki, bu da ölkəmizin ümumi XTD-sinin 16,7%-ni təşkil etmişdir. Azərbaycanın 2023-cü ildə ayrı-ayrı türkdilli dövlətlərlə XTD-sinin ümumi dövriyyədə xüsusi çəkisini nəzərdən keçirmək üçün qrafik 1-ə diqqət yetirək.




**Qrafik 2. Azərbaycanın 2023-cü ildə ayrı-ayrı türkdilli dövlətlərlə XTD-sinin ümumi dövriyyədə xüsusi çəkisi**

*Mənbə: müəllif tərəfindən https://customs.gov.az/uploads/foreign/2023/2023_12.pdf?v=1705581222// və https://www.stat.gov.az/source/trade// -əsasında hazırlanıb.*

Qrafik 2-dən ölkənin türkdilli dövlətlərlə XTD-sinin əsas hissəsinin Türkiyənin payına düşdüyünü görmək olar. 2023-cü ildə Türkiyə ilə XTD-nin həcmi 7650,6 milyon ABŞ dolları olub ki, bunun 5359,3 milyon ABŞ dolları və ya 70,1%-i ixracın, 2291,3 milyon ABŞ dolları və ya 29,9%-i idxalın payına düşmüşdür. Həmin ildə Türkiyə ilə ixrac ümumi ixracın 15,8%-ni, idxal isə ümumi idxalın 13,2%-ni təşkil edib. 2023-cü ildə Azərbaycan 193 ölkə ilə XTƏ-lər qurmuşdur ki, həmin ölkələr arasında Türkiyə ilə XTD-nin ümumi həcminə görə İtaliyadan sonra gəlməklə ikinci yeri tutmuşdur (14,9%).

Göründüyü kimi, Türkiyə və Azərbaycan arasında ticarət həcmi ümumilikdə artaraq 1992-ci ildəki təxminən 200 milyon dollardan 2023-cü ilin sonuna 7650,6 milyon dollara yüksəlmişdir. İkitərəfli ticarət həcminin artdığı bəzi dövrlərdə Türkiyə və Azərbaycanda yaşanan devalvasiyalar ikitərəfli ticarət həcminin ABŞ dolları ilə ifadəsində azalmasına səbəb olmuşdur.

Azərbaycanın türkdilli dövlətlərlə XTD-nin həcmini əks etdirən qrafik 3-ə nəzər yetirsək, görərik ki, əgər 2015-ci ildə ölkəmizin Türkmənistanla XTD-si 52,4 milyon ABŞ dolları təşkil etdiyi halda, 2023-cü ildə həmin ilə nisbətən 14,7 dəfə artaraq 773,9 milyon ABŞ dolları təşkil etmişdir.




**Qrafik 3. Azərbaycanın Türkiyə ilə XTD-sinin həcmi, milyon ABŞ dolları**
*Mənbə: müəllif tərəfindən https://customs.gov.az/uploads/foreign/2023/2023_12.pdf?v=1705581222// və https://www.stat.gov.az/source/trade//-əsasında hazırlanıb.*

Hazırda "Türk baxışı 2040" adı altında hazırlanmış strateji sənədi Türkdilli dövlətlərin gələcəyini, onlar arasında əməkdaşlıq əlaqələrini gücləndirəcəkdir. Bunlarla bərabər, Azərbaycanın Türkdilli ölkələrdə ticarət nümayəndəliyinin yaradılması onlar arasında ticarət əməliyyatlarının daha çevik və səmərəli reallaşdırılmasını təmin edəcək.

**Dissertasiyanın nəticə bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr yer almışdır:**

Tədqiqatın gedişində əldə olunan elmi nəticələri, yanaşmaları, irəli sürülən təklif və tövsiyyələri sistemləşdirilərək, aşağıdakı kimi təqdim etmək olar:

1. Xarici ticarət əlaqələrinin şaxələndirilməsi hesabına qlobal təzyiqlərin nisbətən yumşaldılması və ölkənin xarici amillərdən asılılığının azaldılması, ilk növbədə xarici bazarlarda daha çox beynəlxalq ticarət axınına malik sahələrin Azərbaycan iqtisadiyyatına təsirinin, yəni milli iqtisadiyyata təsirinin qarşısını almaq və yaxud mənfi fəsadların dairəsini azaltmaq kimi çox mühüm strateji vəzifə qarşıda durur.

2. Dövlət ölkənin XTƏ-nin şaxələndirilməsi, mümkün dünya dövlətləri və regionları ilə bu qəbildən olan əlaqələrin maksimum səmərəli və məhsuldar olması üçün davamlı tədbirlər görməli, qanunvericilik bazasını təkmilləşdirməli, yeni fəaliyyət mexanizmləri və alətləri tətbiq etməli, daha təsirli stimullaşdırıcı dövlət dəstəyi mexanizmlərini hazırlamalı və digər mühüm məsələləri diqqət mərkəzində saxlamalıdır.

3. XTƏ-in milli iqtisadiyyata, iqtisadi artıma və makroiqtisadi göstəricilərə təsirinin qiymətləndirilməsi üçün, ilk növbədə ölkənin xarici ticarət əlaqələrinin əsas istiqamətlərini və mərhələlərini müəyyənləşdirmək məqsədəuyğundur. Bu, ölkənin ixrac imkanlarını, ixrac potensialını, idxal aslılığını və milli iqtisadiyyat üçün digər amilləri müəyyənləşdirməyə imkan verir.

4. Bu nəticəyə gəlirik ki, xarici ticarətin müasir inkişafının üç əsas qanunauyğunluqları vardır: 1) Xarici ticarətin artım tempinin sürətləndirilməsi. 2) Xarici ticarətin qloballaşması ilə regionallaşması və ümumilikdə XİƏ-lər arasında ziddiyyətlərin gücləndirilməsi. 3) İnformasiya əsrində ETT-nin dünya ticarətinin vəziyyətinə bilavasitə təsiri. Bunlarla bərabər, xarici ticarət bütün dünya ölkələrinin ticarətindən ibarət beynəlxalq əmtəə-pul münasibətləri sistemidir.

5. Fikrimizcə, gömrük tənzimləməsinin səmərəliliyi XTƏ-lərin genişləndirilməsinə mühüm təsir göstərir. Gömrük orqanları yerləşdikləri yerlərdə xarici iqtisadi sahədə və dövlət tənzimlənməsi sahəsində münasibətlərin bir növ tənzimləyicisi kimi çıxış edirlər. Tarif tədbirlərinin, xüsusən də gömrük tarifinin, Azərbaycan Respublikasının regional xüsusiyyətlərini nəzərə alaraq xarici ticarətin tənzimlənməsi vasitəsi kimi istifadə edilməsi xarici iqtisadi qarşılıqlı əlaqənin səviyyəsini genişləndirə və ticarət qarşılıqlı əlaqəsi üçün ön şərtlər yarada bilər.

6. Bizə görə, gömrük siyasəti daxili bazarın idxala daha həssas olan sektorlarının tarif mühafizəsi vasitələri əsasında idxal rüsumlarının azaldılmasına seçmə yanaşmanın işlənib hazırlanmasına yönəldilməlidir. Tariflərin formalaşması Azərbaycanın fiskal siyasətinin vəzifələrinin həlli nəzərə alınmaqla reallaşdırılmalıdır.

7. Fikrimizcə, XTF-nin liberallaşdırılması idarəetmə və tənzimləmə sistemində müvafiq islahatların aparılmasını tələb edir.

Azərbaycanda xarici iqtisadi sferanın idarə edilməsi sahəsində islahatlar formalaşmış xarici və yerli təcrübə nəzərə alınmaqla aparılmalıdır. Azərbaycanda XTƏ-lər sisteminin müasir idarəetmə mexanizminin təkmilləşdirilməsi istiqamətində artıq xeyli işlər görülüb. Bununla belə, onun məqsəd və vəzifələrinin, XTƏ-lərin dövlət tənzimlənməsi mexanizminin təkmilləşdirilməsinin təşkilati, metodoloji və hüquqi formalarının əsaslandırılmasını ehtiva edən elmi konsepsiya lazımdır.

8. Türkdilli dövlətlərlə XTƏ-lərin gücləndirilməsi üçün müxtəlif xarakterli tədbirlərin görülməsini təklif edirik:

- Sahibkarlığın XTF-yə dövlət dəstəyinin mövcud alətlərinin rasionallaşdırılması və səmərəliliyinin artırılması;
- XTƏ-lərinin genişləndirilməsində İKT komponentinin rolunun artırılması;
- Mövcud alətlərin modernləşdirilməsi və yeni alətlərdən istifadə etməklə ixracın dəstəklənməsi üçün maliyyə mexanizmlərinin səmərəliliyinin artırılması;
- XTƏ-ləri dəstəkləmək üçün qeyri-maliyyə alətlərinin hazırlanması;
- Türkdilli dövlətlərlə milli əmtəə paylama şəbəkəsinin daha da inkişafının və səmərəli şəkildə istifadəsinin təmin edilməsi;
- valyuta və gömrük nəzarətinin, xarici ticarət müqavilələrinin tamamlanma müddətlərinin liberallaşdırılması;
- xidmətlərin ixracının sürətləndirilməsinin stimullaşdırılması, Azərbaycanın tranzit imkanlarından daha səmərəli istifadə və biliktutumlu xidmət növlərinin sürətləndirilmiş inkişafı;
- Yüksək texnologiyalı və yüksək əlavə dəyərə malik malların çeşidinin keyfiyyətinin yaxşılaşdırılması yolu ilə ixracın əmtəə strukturunun təkmilləşdirilməsi və s.

9. Postkonflikt ərazilər kontekstində Azərbaycanın xarici ticarət əlaqələrinin gücləndirilməsi perspektivlərindən maksimum səmərəli istifadə edilməsi təmin olunmalıdır: xarici investorların fəal şəkildə cəlb edilməsi, rəqabət qabiliyyətli və ixracyönlü müəssisələrin yaradılmasına konseptual yanaşmalar formalaşdırılmalıdır.

10. Müasir qlobal çağırışlar kontekstində Azərbaycanın ticarət

əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, ilk növbədə xarici ticarət əlaqələrinin diversifikasiyalaşdırılması, xarici ticarət dövriyyəsinin strukturunun təkmilləşdirilməsi, qeyri-neftqaz ixracının stimullaşdırılması mexanizmlərinin yenilənməsi məqsədilə "Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin səmərəliliyinin yüksəldilməsi üzrə Dövlət Proqramı"nın hazırlanmasını və reallaşdırılmasını təklif edirik və s.

**Dissertasiya işinin əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1. Quluzadə, Y.Ə. Xarici ticarətin təşkilinin əsasları və inkişaf xüsusiyyətləri. // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnal, №4 (59)-2020. – s. 183-203.
2. Quluzadə, Y.Ə. İqtisadi səmərəliyin mahiyyəti və məzmunu. // – Bakı, "Əmək və sosial münasibətlər", 2021. № 02 (16), – s.150-157.
3. Quluzadə, Y.Ə. Xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və mövcud problemlərin müəyyənləşdirilməsi. // – Bakı: Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Pandemiyanın Dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. ADNSU, – 2021, s. 145-150.
4. Гулузаде, Я.А. Особенности развития внешней торговли Азербайджана. // – Гомель: "Экономико-правовые перспективы развития общества, государства и потребительской кооперации. Сборник научных статей международной научно-практической интернет-конференции", – 2021, – с. 248-251.
5. Гулузаде, Я.А. Анализ современного состояния внешнеторговых отношений Азербайджанской Республики. // – – Москва: Научный электронный журнал вестник учёных-международников IR SCIENTISTS' HERALD, – 2022 (19), – с. 280-298.
6. Quluzadə, Y.Ə. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin səmərəli inkişaf istiqamətləri. // – Bakı: "Heydər Əliyev və müasir türk dünyası" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, AKU, – 2023, – s. 143-147.

7. Quluzadə, Y.Ə. Müasir dövrdə ixracın səmərəliliyinin qiymətləndirilməsi məsələləri. // – Bakı: Qərbi Kaspi xəbərləri jurnalı, 2023. № 04, – s.101-108.

8. Quluzadə, Y.Ə. Azərbaycanın xarici ticarət əlaqələrinin səmərəlilik problemlərinə konseptual yanaşmalar. // – Bakı: Qərbi Kaspi xəbərləri jurnalı, – 2024. № 01. – s. 197-203.

9. Гулузаде, Я.А. Актуальные проблемы и перспективы расширения внешнеторговых связей Азербайджана. // – Москва: “Экономика и Управление: проблемы, решения”, ИД “Научная Библиотека”, 2024. № 3, Том 7. - s. 108-115.

10. Гулузаде, Я.А. Пути расширения внешнеторговых связей Азербайджана в современных условиях. // – Москва: Материалы VI Международного научно-практического конференции “Трансформация российской науки в эпоху информационного общества”, 24 мая 2024 г. - s. 31-41.



Dissertasiyanın müdafiəsi 14 may 2025-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən ED 2.46 Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 11 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.04.2025

Kağızınformatı: 60 x 84 1/16

Həcm: 41885 işarə

Tiraj: 100